**Ələsgər Talıboğlu**

## DAĞLAR MƏNİ ÇAĞIRIR

Elə bil içimdə haray qoparır,
Çağırır qoynuna o dağlar məni .
Hər gecə yuxumda çəkib aparır,
Çağırır qoynuna  o dağlar məni.

Buludlar göylərdən daşmı elədi,
Gürşadmı qopardı, nəmmi çilədi.
Bizə nə etdisə , fələk eylədi,
Çağırır qoynuna o dağlar məni.

Laçınlar qıy vurmur zirvədə, qaşda,
Həsrətdən köz salıb yanaqda yaş da.
”Gəl”-deyə səsləyir qaya da, daş da,
Çağırır qoynuna o dağlar məni.

Nə vaxtdan ürəyim dağlar qalıbdı,
Viranə könlüm də ağlar qalıbdı.
Başımda o şirin çağlar qalıbdı,
Çağırır qoynuna o dağlar məni.

Çağırır analar çağıran kimi,
Yarını sonalar çağıran kimi.
Oduma yananlar çağıran kimi,
Çağırır qoynuna o dağlar məni.

Dədəmin , babamın ruhu çağırır,
Naləsi, fəryadı , ahı çağırır.
Ələsgər, qəlbinin şahı çağırır,
Çağırır qoynuna o dağlar məni.

## GÖZ AÇDIM

Göz açdım cahana anamı gördüm,
Müqəddəs varlıq tək doğurdu məni.
O , beşik başında hər axşam-sabah,
Şirin laylasında yoğurdu məni.

Göz açdım əvəzsiz qoşa qanad tək,
Göylərdən bac alan Ağrını gördüm.
Bir qürur , əzəmət simvolum oldu,
Başında ağ çalma, sarğını gördüm.

Göz açdım ... kəndimi yalayıb keçən,
Nisgildən qıvrılan Arazı gördüm.
Yurdumu xəncər tək ikiyə bölən,
Könlümdə daşlaşan murazı gördüm.

Boy atdım, böyüdüm, duydum , anladım,
Ağrı qibləm oldu, Arazsa laylam.
Biri ümid yerim, biri həsrətim,
Odur ki, vurğunam, hayıl-mayılam.

## ÖMÜR YAŞADIM

*Xalq şairi Məmməd Araza*

Yaranışdan yolum nədən kəc düşdü,
Ömrü ağrı-acılarla başladım.
Bəlkə elə, fələkdənmiş, güc düşdü,-
”Bu da belə bir ömürdü yaşadım”.

Uçurumun kandarından dönmüşəm,
Bir ocaq tək gah yanmışam, sönmüşəm.
Əyilməzkən polad kimi sınmışam,-
”Bu da belə bir ömürdü yaşadım”.

Dərdi çəkdim papaq kimi başıma.
Ağrı-acım köç eyləyə, daşına.
Deme, yaşamağım hədər... boşuna...
” Bu da belə bir ömürdü yaşadım ”.

Mən zirvə istədim, dərədə oldum,
Çatılmış ocaqda, kürədə oldum.
Haradan haraya...harada oldum.
“Bu da belə bir ömürdü yaşadım ”.

Ay Ələsgər, daha bəsdir nəm yemə,
Qüssə yemə, kədər yemə, qəm yemə.
Tanrı verən qismətdirsə, kəm yemə,-
“Bu da belə bir ömürdü yaşadım ”.

## SIXDIM ÜRƏYİMƏ

Sıxdım ürəyimə...
bir yurdun
qara-qara buludlarının
ucundan tutub
göyə çıxa biləcəyim
selləmə yaz yağışını,
tük ürpədən
soyuq payız küləyinin
qulaq batıran
naləsini, fəryadını, qarğışını...
Taki, kimsə rahatsız olmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
bakirə qız kimi
gəlinlik geyinmiş bəmbəyaz yaraşığını,
aylı yay gecələrinin
bətnindən doğulan
əsrarəngiz dan işığını...
Taki, ürəklərə çirkab dolmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
ahı göylərə yüksələn
qüssə dolu ağrısını-acısını,
içimizi paran-paran parçalayan
talan olmuş Qarabağ tək
qəlb göynədən sancısını...
Taki, ”anam-bacım qız -gəlin”lər
bir daha saçını yolmasın deyə.

Sıxdım ürəyimə...
bu yurdun
Borçalı, Təbriz, Dərbənd, Göyçə kimi
neçə-neçə perik düşmüş parasını,
yüz illərdir sağalmayan
qaysaq-qaysaq yarasını..
Taki, yağı düşmənə
əbədilik qalmasın deyə.

Sıxdım ürəyimə..
bu yurdun
aranını, dağını sıxdım.
Şəhdi-şirəsini, yağını sıxdım.
Yalını, yamasını sıxdım.
Kəkliyini, turacını sıxdım.
Qalın-qalın meşəsini sıxdım.

Nərgizini, tər bənövşəsini sıxdım.
.... və hər şeydən öncə
daşını, torpağını sıxdım.
Budaq-budaq ağacını,
ləçək-ləçək yarpağını sıxdım...
Sonra isə... endim..endim...
üz qoydum bayrağına..
Əllərimə alıb sürtdüm gözlərimə.
Sürtdüm ki....
taqət gəlsin dizlərimə...

Sıxdım ürəyimə...
bayrağını sıxdım..
Taki, o ucalıqdan bir daha enməsin deyə.

## BİRİ SƏNSƏN, BİRİSİ MƏN

Biz Tanrının paylarıyıq,
Biri sənsən, birisi mən.
Bir xurcunun taylarıyıq,
Biri sənsən, birisi mən.

Bir sevdanın parasıyıq,
Bir həsrətin yarasıyıq.
Bir eşqin üz qarasıyıq,
Biri sənsən, birisi mən.

Həm gecəyik, həm gündüzük,
İki qaşıq, iki gözük.
Bri səhfik, biri düzük,
Biri sənsən, birisi mən.

Bir ağlayıb güləsi  də,
Dərdə məlhəm biləsi də.
Elə birgə öləsi də,
Biri sənsən,birisi mən.

## ÇƏKƏSƏN BELƏ

*Təcnis*

Bəlkə də utandım,ya man eylədim,
Eşqini könlümə yaman eylədim.
Nə fərqi:sən etdin, ya mən eylədim
İllərdir ağrısın çəkəsən belə.

Mənə nə etdisə, yar ədan etdi,
Sevginlə vurduğun yaradan etdi.
Bəlkə də o  böyük Yaradan etdi,
İllərdir ağrısın çəkəsən belə.

Mən necə ömr etdim,necə keçindim,
Hər səni gördükcə öldüm,keçindim.
Duymadın qəlbimi, var, get, keç indi,
İllərdir ağrısın çəkəsən belə.

Dəli könlüm göylər kimi qəlbisən,
Ələsgərin ürəyisən, qəlbisən.
Neyləyirsən daşa dönmüş qəlbi sən,
İllərdir ağrısın çəkəsən belə.